# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/20** **20 iyul 2020-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasında xüsusi karantin rejimi dövründə koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik tələblər barədə**

Azərbaycan Respublikası Baş Nazirinin "Xüsusi karantin rejimi dövründə dövlət orqanlarında (qurumlarında) koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik Tələblər"in tətbiq edilməsi barədə 2020-ci il 18 iyul tarixli 10/763 nömrəli məktubunu rəhbər tutaraq **qərara alıram:**

1. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Y.Namazəliyev, M.Abbasov, V.Cavadov, Q.Əhmədov, V.Rəhimov, E.Behbudova, F.Kamalova, M.Hüseynova, N.İsmayılov) tapşırılsın ki, Azərbaycan Respublikasının Auditorlar Palatasında xüsusi karantin rejimi dövründə koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi sanitariya-epidemioloji və profilaktik tələblərə riayət edilməsi təmin edilsin (əlavə olunur).

2.Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Y.Namazəliyev, M.Abbasov, V.Cavadov, Q.Əhmədov, V.Rəhimov, E.Behbudova, F.Kamalova, M.Hüseynova, N.İsmayılov) tapşırılsın ki, Azərbaycan Respublikasının Auditorlar Palatasında xüsusi karantin rejimi dövründə koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik tələblərə dair əməkdaşlarla maarifləndirici iş aparsınlar.

3. Auditorlar Palatasında sanitariya-epidemioloji, profilaktik tələblərə, işin təşkilinə nəzarət edilməsi üzrə Palatanın icraçı direktoru Səbuhi Gülməmmədov, Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi Vəli Rəhimov və Təşkilati-texniki təminat şöbəsinin müdiri Nazim İsmayılov məsul şəxslər təyin edilsinlər.

4. Məsul şəxslərə (S.Gülməmmədov, V.Rəhimov, N.İsmayılov) tapşırılsın ki, "Xüsusi karantin rejimi dövründə Auditorlar Palatasında koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji və profilaktik Tələblər"də nəzərdə tutulan məsələlərə dair zəruri işləri həyata keçirsinlər.

5. Bu Sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**